Gülnar Səma



## Burda nə var ki...

Ayrılaq səninlə, burda nə var ki?
Ayrılıq mənimçün həyat tərzidi.
Bir ömrü hey ölçür-biçir durmadan,
Həyat yolumuzda həyat dərzidi.

Eh!.. Burda nə var ki, ayrılaq getsin,
Guya ayrılmayıb neyləyəcəyik?
Bizim həsrətimiz bir ömürlükdü,
Vüsalı yolundan eyləyəcəyik.

Çoxdan gözləyirdin bu təklifimi,
Ayrıldıq, üstündən dağ götürüldü.
Sənin məhəbbətin öldü, gömüldü,
Mənim xəyallarım sağ götürüldü.

## Var

Sənsiz gecələrə vərdiş etmişəm,
Həsrətə, hicrana məndə dözüm var.
Nazıyla oynadım ayrılıqların,
Vüsala tamarzı iki gözüm var.

Mənli-mənsiz, onlu-onsuz arzular,
Qanıma susadı qansız arzular.
Qar üstə yazdığım sonsuz arzular
Od üstə can verən neçə buzum var.